AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**MAYA RƏHİM QIZI KƏRIMOVA**

# UŞAQLARIN ŞİFAHİ NİTQİNİN İNKİŞAFINDA BAĞÇA İLƏ MƏKTƏB ARASINDA VARİSLİYİN İMKANLARI VƏ YOLLARI

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası

(Azərbaycan dilinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI - 2013

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Həsən Balı oğlu Balıyev**
*pedaqogika ğzr□ f□ls□f□ doktoru, professor*

**Nadir □ziz o□lu Abdullayev**
*pedaqogika ğzr□ f□ls□f□ doktoru, professor*

**R□smi opponentl□r:** **İbrahim Məhəmməd oğlu Bayramov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Asif Xatabala o□lu Hac□yev**
*pedaqogika ğzr□ f□ls□f□ doktoru, dosent*

**Apar□c□ t□□kilat:** Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası

Müdafiə "_24__"__09____2013-cü il saat ____da Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyov küç., 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" __________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpası sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, təhsildə də dəyişikliklərin aparılmasını, dünyanın qabaqcıl ölkələrinin təlim sistemi ilə rəqabət apara bilən və onunla ayaqlaşan yeni təhsil sisteminin yaradılmasını tələb edir. Respublikamızın yeni inkişaf yoluna qədəm qoyması Ümummilli liderimiz H.Əliyevin rəhbərliyi altında milli təhsilimizin inkişafı naminə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunmuşdur. Belə ki, 15 iyun 1999-cu ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" respublikamızın təhsil sistemində yeni bir tarixi dövrün əsasını qoydu. H.Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları təhsilimizin və dilimizin inkişafına diqqət və qayğının təzahürüdür.

Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" özünün nəticəyönümlü xarakterinə və şəxsiyyətyönümlü mahiyyətinə, təhsil alanların ehtiyac və tələbatlarını konkret təlim nəticələri formasında ifadə etməsinə görə ölkəmizin tarixində ilk təhsil sənədi kimi dəyərləndirilir. Hələlik sabitləşmə prosesini tam başa çatdırmamış yeni təhsil konsepsiyası mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını qorumaqla, yəni varisliyi gözləməklə beynəlxalq standartlara uyğun, "demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanan, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə söykənən, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması"[1]nı mühüm vəzifələrdən biri kimi irəli sürür.

Təhsil sahəsində İslahat Proqramının davamı olaraq 12 aprel 2007-ci ildə respublikamızın Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan

---

[1]Mərdanov M., Şahbazov F. Azərbaycanın Təhsil Siyasəti (1998-2004), I cild, Bakı:Çaşıoğlu, 2005, s.122

Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" imzalanmışdır. Proqramda deyilir: "Məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir". Proqramda "məktəbəqədər təlim-tərbiyənin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli və psixoloji inkişafı, onların məktəbə hazırlığı baxımından, beynəlxalq təhsil məkanında son mütərəqqi təcrübənin öyrənilməsi və tətbiqi" mövcud şəraitdə qarşıya qoyulmuş əsas istiqamətlər kimi qeyd olunur. İrəli sürülən məqsəd və vəzifələrin reallaşdırılması üçün "məktəbəqədər təhsilin ölkədə vahid təhsil siteminin digər pillələri ilə əlaqəsinin gücləndirilməsi və sıx inteqrasiyasının təmin olunması" vacib şərt kimi qiymətləndirilir. Həqiqətən də, təhsil islahatının uğurla həyata keçirilməsi prosesində təhsilin pillələləri arasında məqsəd və vəzifələrin düzgün müəyyənləşdirilməsi, bütün mərhələlərdə prosesə vahid tələblərlə yanaşmaq, bağça və məktəb arasında əlaqə və varisliyi təmin etmək səmərəli nəticələr verə bilər. Lakin uşaq bağçası və ibtidai məktəb pillələrində təlim-tərbiyə prosesinin məzmunu və təşkili arasında əlaqələrin qoyulan tələblərə cavab vermədiyi müşahidə olunur ki, bu da varislik və perspektivliyin bir sistem şəklində gözlənilməməsi ilə bağlıdır. Halbuki 19 iyun 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" qanunda təhsil sahəsində dövlət siyasətinin başlıca prinsipləri sırasında varislik, fasiləsizlik və inteqrasiya əsas prinsiplər kimi öz əksini tapmışdır. Müşahidə və müqayisələr göstərir ki, məktəbə gələn uşaqların təlim fəaliyyəti o zaman müasir tələblər səviyyəsində təşkil oluna bilər ki, təlim prosesi bağçada qazanılan bilik və bacarıqlar üzərində qurulsun. Təbii ki, tədrisin bu istiqamətdə təşkilində uşaq bağçası və məktəbin üzərinə konkret vəzifələr düşür və bunlar təlimin müəyyən məqamlarında kəsişməklə biri digərini təkrarlayır, genişləndirir və inkişaf etdirir.

Cəmiyyətimizin indiki inkişaf mərhələsində məktəbə, demək olar ki, hazırlıqsız uşaq gəlmir. İstər bağçadan, istərsə də hazırda üstünlük təşkil edən savadlı ailələrdən məktəbə gələn uşaqların ümumi səviyyəsi məktəb təlimini bu baza üzərində qurmağa imkan verir. Lakin həmin pillələr arasında təlimin məzmunu, metod və vasitələrinin uyğunluğu, varisliyin reallaşdırılması yolları, didaktik imkanları hələ də ətraflı tədqiq olunmamışdır. Doğrudur, Azərbaycan pedaqoji irsində varisliyin əhəmiyyəti və bu prinsipdən istifadənin təlimdə yaratdığı səmərəliliyə, konkret desək, uşaq bağçası və ibtidai məktəb arasında əlaqəli tədris məsələlərinə A.Abdullayev, Y.Kərimov, H.Balıyev, B.Əhmədov, Ə.Əfəndizadə, A.Rəhimov, E.Kərimova, B.Paşayeva, Ə.Qədimova, X.Səlimxanova kimi metodist alimlərin əsərlərində bu və ya digər səviyyədə toxunulmuşdur. Eləcə də araşdırılan prob-

lemlə bağlı rus metodistlərinin zəngin tədqiqatları mövcuddur və burada uşaq bağçası ilə ibtidai məktəb arasında varisliyi gözləməyin formaları konkret şəkildə tədqiqata cəlb olunmuşdur. İstər Azərbaycan, istərsə də rus dilində yazılmış metodik ədəbiyyatda bağça və məktəb təlimi arasında varisliyi təmin etməyin əhəmiyyəti xüsusi vurğulanır. Bununla belə, təhsilin bağça və məktəb mərhələləri arasında varisliyin gözlənilməsinin forma və yolları, təlim-tərbiyədə kompleks yanaşma, varislik zəminində müasir təlimin əsas prinsiplərindən olan nitqin inkişaf etdirilməsi sistemli şəkildə araşdırılmadığından bunun həyata keçirilməsi tərbiyəçi və müəllimlərin öhdəsinə buraxılmışdır. Məhz bu səbəbdən təhsilin mövcud pillələri arasında varisliyin gözlənilməsi epizodik, kortəbii xarakter daşıyır. Odur ki, şifahi nitqin inkişafında bağça və məktəb arasında varisliyin həyata keçirilməsinin imkan və yollarının sistemli şəkildə araşdırılması aktual bir məsələ kimi dəyərləndirilməlidir.

**Tədqiqatın obyekti** məktəbəqədər hazırlıq qrupları və ibtidai məktəbdə uşaqların nitq inkişafı prosesidir.

**Tədqiqatın predmetini** şifahi nitqin inkişaf etdirilməsində bağça və məktəb təhsili arasında varisliyin gözlənilməsinin imkan və yolları təşkil edir.

**Tədqiqatın məqsədi** məktəbəqədər hazırlıq qrupları və ibtidai siniflər arasında mövcud olan əlaqə və varisliyin nitq inkişafı baxımından pedaqoji əsaslarını, imkanlarını və səmərəli təşkili yollarını müəyyənləşdirərək sınaqdan çıxarmaq və optimal metodik sistemini işləyib hazırlamaqdır.

**Tədqiqatın fərziyyəsi**. Məktəbəqədər hazırlıq qrupları və məktəbdə təlimin məzmunu, forma və metodları arasında varislik prinsipi gözlənilərsə:

- şagirdləri idraki fəallığa həvəsləndirən, maraq dairəsinə uyğun gələn yaradıcı təlim prosesi yaradılar;
- şagirdlərin ümumi inkişafına, o cümlədən şifahi nitq qabiliyyətlərinin inkişafına daha optimal şəkildə nail olmaq üçün geniş imkanlar yaranar.

Məqsəd və irəli sürülmüş fərziyyə əsasında aşağıdakı **vəzifələrin** reallaşdırılması qarşıya qoyulur:

- məktəbəqədər hazırlıq qrupları və ibtidai siniflərdə uşaqların şifahi nitq vərdişlərinə yiyələnmə səviyyəsini müəyyənləşdirmək;
- problemin proqramlarda, metodik ədəbiyyatda qoyuluşunu və hər iki təhsil müəssisəsində şifahi nitqin inkişafı üzrə aparılan işlərin mövcud vəziyyətini öyrənmək;
- şifahi nitqin inkişafı üzrə təlim materiallarının məzmunu, öyrədilmə şəraiti və metodlarının bağça ilə məktəb arasında varislik prinsipinə uyğun

təşkili xüsusiyyətlərini aşkara çıxarmaq;

- bağça və məktəbdə şifahi nitqin inkişafını optimallaşdıran metod və vasitələr arasında ümumi və spesifik cəhətləri müəyyənləşdirmək, onların tətbiqinin sistemi və səmərəliliyini ekspirementlə yoxlamaq, nəticələrin düzgünlüyünü sübut etmək;
- bağça və məktəb arasında nitq inkişafı baxımından varisliyin gözlənilməsinin zəruriliyini əsaslandırmaqla mövcud imkanları və səmərəli yollarını üzə çıxarmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək, dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları** təhlil, müşahidə, müsahibə, statistik və riyazi metodlar, pedaqoji eksperimentdir.

Tədqiqatda Azərbaycan dilçiliyinin fonetika, leksikalogiya və qrammatika bölmələrinin nitq inkişafı ilə bağlı elmi-praktik məsələləri, uşaq bağçası və ibtidai siniflərdə təlimin təşkili, varisliyin gözlənilməsi yollarına dair ədəbiyyat təhlil edilmişdir.

Müşahidə zamanı Yasamal rayonundakı 11, 117 nömrəli bağça və 153, 158 nömrəli məktəblərin, Səbail rayonundakı 136 nömrəli bağça və 236 nömrəli məktəblərin, Nərimanov rayonundakı 49, 183 nömrəli bağça və 177, 202, 45 nömrəli məktəblərin, Şəki şəhərindəki 4, 9, 27 nömrəli bağça və 1, 2, 10 nömrəli məktəblərin uşaqlarının təlim fəaliyyəti izlənmişdir. Bu zaman tərbiyəçi və müəllimlərin şifahi nitqin inkişafı üzrə apardığı işlər, istifadə olunan metod və vasitələr, uşaqların şüurluluq, təşəbbüskarlıq, müstəqillik fəaliyyəti, meyil və marağı müşahidə olunmuş, eksperimental təlim materiallarının hazırlanması üçün istiqamət götürülmüşdür. Bağça və ailədən məktəbə gələn uşaqların təlimə münasibəti, mənimsəmə və nitq vərdişlərindəki fərqlər, fəallıq dərəcəsi və s. təlim üçün yararlı cəhətlərinə diqqət yetirilmişdir.

Müsahibə zamanı tərbiyəçi və ibtidai sinif müəllimlərinin yeni təlim texnologiyalarına münasibəti, istifadə etdikləri metodlar, biri-birlərinin işlərinə və şifahi nitqin nəzəri məsələlərinə bələdliyi aşkara çıxarılmış, müsahibənin nəticələri sorğu anketlərində əks olunmuş, cavablar ümumiləşdirilmişdir. Müşahidə və sorğunun nəticələrindən toplanan faktlar ümumiləşdirilərək qruplaşdırılmış, sistemləşdirilmiş, şifahi nitqin inkişafında varisliyə əməl olunmanın imkan və yolları dəqiqləşdirilmişdir.

Eksperiment metodundan məktəbəhazırlıq qruplarında və ibtidai siniflərdə istifadə edilmişdir. Eksperiment üç mərhələdə aparılmışdır:

Birinci mərhələdə müəyyənedici eksperiment təşkil edilmiş, məktəbə

bağçadan, həm də ailədən gəlmiş uşaqların nitq inkişafının səviyyəsi öyrənilmişdir. Uşaqlarla aparılan kütləvi müsahibə və fərdi iş zamanı onların nitqinin rabitəliliyi, fonematik eşitmə dərəcəsi, lüğətinin həcmi və ondan məqamına görə düzgün istifadə bacarığı, şəkil və konkret əşyaların cümlələrlə ifadəsi, cümlə qurarkən sözlərin miqdarı və ümumişləkliyi və s. məsələlərə diqqət yetirilmiş, hazırlanan öyrədici eksperiment materiallarının məzmununa korrektələr edilmişdir.

İkinci mərhələdə öyrədici eksperiment aparılmış, bağça ilə məktəb arasında şifahi nitqin inkişaf etdirilməsi sahəsində varisliyin qarşılıqlı şəkildə həyata keçirilməsinə diqqət yetirilmişdir. Öyrədici eksperiment zamanı varislik prinsipinin tələbləri əsas götürülərək aşağıdakı məsələlərə xüsusi diqqət yetirilmişdir:

- bağça və məktəbdə pedaqoji prosesin hər bir mərhələsində təlimin məzmunu, forma və metodları, üsul və vasitələri arasında əlaqə və varisliyin təmin olunması, bunun şagirdlərin şifahi nitqinin inkişafına təsirinin müəyyənləşdirilməsi;
- yeni material öyrədilərkən əvvəl əldə olunmuş biliklərə sistemləşdirmə, ümumiləşdirmə və perspektiv inkişaf baxımından istinad olunması;
- vahid metodik prinsiplərin gözlənilməsi yolu ilə uşaqların bilik və bacarıqlarında müşahidə olunan inkişaf dinamikasının əsaslandırılması, eksperiment nəticələrinin ümumiləşdirilərək tərbiyəçi və müəllimlərin iş metodlarına daxil edilməsi;
- təlim prosesində dilimizin praktik normalarına nitq təcrübəsində əməl etməklə vahid şifahi ədəbi nitq vərdişlərinə yiyələnmiş, dilimizə iftixar hissi ilə yanaşan vətəndaşların yetişdirilməsi.

Üçüncü mərhələdə aparılan yoxlayıcı eksperimentin əsas vəzifəsi bağçada uşaqların şifahi nitqinin daha yüksək səviyyədə inkişaf etdirilməsi məqsədilə aparılan işin və tətbiq olunan metodların məqsədyönlülüyünü müəyyənləşdirməkdən ibarət olmuşdur. Bu zaman birinci mərhələdə aparılmış müəyyənedici eksperiment materiallarının məzmunu əlavə tapşırıqlar hesabına mürəkkəbləşdirilmiş, bəzi biliklərin bacarıq və vərdişlərə çevrilmə səviyyəsi yeni materiallar əsasında yoxlanılmışdır.

**Tədqiqatın elmi yeniliyi:**

- tədqiqatda varislik prinsipinin pedaqoji mahiyyəti aydınlaşdırılmış, varislikdən istifadənin forma və yolları haqqında pedaqoji-metodik ədəbiyyatdakı mülahizələr sistemləşdirilmişdir;
- uşaq bağçası və məktəb arasında şifahi nitqin inkişafı məqsədilə aparılan işlərin məzmun və yollarının varislik prinsipi əsasında təşkilinin nəzəri-metodik istiqamətləri işlənib hazırlanmış və eksperimentlə sınaqdan keçi-

rilərək, uşaqların bilik və bacarıqlarında izlənən inkişaf dinamikası əsaslandırılmışdır;

- təlim prosesində varişliyin yaratdığı əlverişli pedaqoji şəraitin təhlili verilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Bəşəriyyətin ümumi obyektiv qanunu olan varisliyin təlimdə xarakter və mahiyyətinin aydınlaşdırılması, buradan irəli gələn pedaqoji tələblərin bağça və məktəb təhsilinə tətbiqi, varisliyin imkan və yollarının şifahi nitqin inkişafı məqsədilə aparılan məşğələlər əsasında təhlili tədqiqatın nəzəri əhəmiyyətini təşkil edir. Tədqiqatda nitqin tələffüz qaydaları, sözün qrammatik vasitələrlə dəyişməsi, bəzi sintaktik normaların üslubi xüsusiyyətləri və s. praktik dil məsələləri də dəqiqləşdirilmişdir.

Tədqiqat tərbiyəçi və sinif müəllimlərinə şifahi nitqin inkişaf etdirilməsi məqsədilə aparılan məşğələləri varislik prinsipi əsasında düzgün və səmərəli təşkil etmək üçün praktik istiqamət verir. Eləcə də, tədqiqatın nəticələrindən istifadə etməklə uşaq bağçası və ibtidai siniflərdə təlimin məzmunu, forma və metodlarını daha da təkmilləşdirmək, nitq inkişafı məşğələlərini sistemləşdirmək, mövcud proqramları varisliyin yaratdığı pedaqoji şərait və didaktik imkanlar hesabına zənginləşdirmək olar.

Müdafiəyə təqdim olunan **müddəalar:**

- şifahi nitqin inkişafı üzrə bağça və məktəbdə təlim prosesini o zaman səmərəli təşkil etmək mümükündür ki, materialların məzmununda, forma və metodlarda varislik təmin olunsun;

- müasir şəraitdə məktəbəqədər hazırlıq qrupları və ibtidai siniflər arasında varislik vahid elmi-metodik əsaslarla ardıcıl və sistemli tətbiq olunduqda uşaqların şifahi nitq vərdişlərinin səviyyəsini mövcud tələblərə uyğun inkişaf etdirmək mümkün olur;

- nitq inkişafı nəzəriyyəsinin bəzi mübahisəli məsələləri konkret təlim şəraitində dəqiqləşdirildikdə varisliyin gözlənilməsi daha səmərəli nəticələr verir və bu zəmində də uşaqların əqli fəallığı, müstəqil mühakimə yürütmək bacarığı, öyrəndiklərini nitq təcrübəşinə tətbiq etmə qabiliyyəti, ünsiyyət prosesində ədəbi nitqin normalarına uyğun iştirakı xeyli yüksəlir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmiş, işin əsas müddəaları ilk növbədə həmin kafedranın elmi seminarlarında müzakirə edilmiş, işdəki mübahisəli məsələlərin dəqiqləşdirilməsində kafedra üzvlərinin rəy və təklifləri, məsləhətləri nəzərə alınmışdır. Həmçinin tədqiqatın təkmilləşdirilməsində müəllifin müşahidə və eksperiment apardığı bağça və məktəblərin əməkdaşları iştirak etmiş, əsas tezislər həmin təhsil ocaqlarının metodbir-

ləşmələrində müzakirə edilmiş, nəticələr məqbul sayılmışdır.

Tədqiqat materialları üzrə 2 tezis, 16 məqalə nəşr olunmuşdur.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılmış, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanmış, iş prosesində istifadə olunmuş metodlar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılmış müddəalar, tədqiqatın nəticələrinin təcrübəyə tətbiqi və aprobasiyası işıqlandırılmışdır.

**"Şifahi nitqin inkişaf etdirilməsi üzrə bağça ilə məktəb arasında varisliyin reallaşdırılmasının nəzəri və praktik məsələləri"** adlanan I fəsil dörd yarımfəsli özündə birləşdirir. *"Varisliyin mahiyyəti və onun nəzəri əsasları"* adlanan birinci yarımfəsildə dialektikanın inkarı inkar qanununa istinadən varisliyin pedaqoji mahiyyəti şərh olunmuş, Azərbaycan və rus pedaqoqlarının tədqiqatlarında öyrənilmə səviyyəsi müəyyənləşdirilmişdir. Aydınlaşdırılmışdır ki, Azərbaycan pedaqoji fikir tarixində varisliyə birmənalı şəkildə pedaqoji prinsiplərdən biri kimi yanaşılır. Uşaq bağçası məşğələlərində istifadə olunan metod və vasitələr araşdırılarkən əyanilik, yaşauyğunluq, şüurluluq, fərdi yanaşma, inkişafetdiricilik, perspektivlik və s. kimi didaktik prinsiplərlə yanaşı, varisliyə də toxunulur. Ə.Paşayev, F.Rüstəmov təlim prosesində sistematiklik və ardıcıllığın gözlənilməsi zamanı riayət olunması vacib olan qayda və tövsiyələrdən danışarkən bu sistemə təhsilin məzmunu və təlim metodlarında varisliyin təmin olunmasını, əvvəl mənimsənilmişlərin tez-tez yoxlanılması və təkmilləşdirilməsini, müntəzəm olaraq fənlərarası əlaqədən istifadə edilməsini, yeni materialın əvvəl keçilənlərlə əlaqələndirməsi və köhnə biliklərin yeni biliklərin içərisində təkrar edilməsini daxil edirlər.Təlim-tərbiyədə varislik məsələləri B.Q.Ananyev, L.S.Vıqotski, Ş.İ.Qanelin, V.V.Davıdov, M.A.Danilov, B.P.Yesipov, A.V.Zaporojes, V.T.Kudryavsev, A.N.Leontyev, S.L.Rubinşteyn kimi rus alimləri tərəfindən tədqiq olunmuşdur. Onlar belə hesab edirlər ki, bu problem məktəbəqədər dövrdən kiçik məktəbli yaş dövrünə keçid zamanı daha kəskin xarakter alır. Belə ki, bu dövrlərin kəsişmə nöqtəsi uşağın inkişaf mərhələlərinin dəyişmə nöqtəsi ilə üst-üstə düşür. Məktəbin ibtidai pilləsindən orta pilləsinə keçid zamanı da analoji proseslər baş verir.Lakin bu tədqiqatlarda varisliyin mahiyyəti, fənlərarası (məşğələlərarası) və fəndaxili əlaqələrin yaradılmasında varisliyin məzmunu, forma və yolları kimi nəzəri-praktik məsələlərə

diqqət yetirilmir, varislik obyektiv inkişaf qanunundan irəli gələn prinsip kimi elmi-metodik və pedaqoji baxımdan lazımi səviyyədə araşdırılmır. Pedaqoji yönümlü tədqiqatlarda bağça təhsilinin məqsəd və vəzifələri düzgün ümumiləşdirilsə də, həmin bacarıqların məktəb təhsilinə, konkret ifadə etsək, nitqin inkişafı sahəsinə tətbiqi hər hansı bir praktik işlə əsaslandırılmır.

*"Məktəbəqədər hazırlıq qrupları ilə ibtidai siniflər arasında varisliyin gözlənilməsi məsələsinin proqramda qoyuluşu"* adlanan ikinci yarımfəsildə bağça və ibtidai sinfin mövcud proqramları nitq inkişafı baxımından təhlil olunmuş və belə bir qənaətə gəlinmişdir ki, Respublikamızda yeni təhsil sisteminin qurulması istiqamətində aparılan məqsədyönlü islahatlar onun bütün pillələrini əhatə etməkdədir. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" kimi dövlət əhəmiyyətli konseptual bir sənədin hazırlanması yetişməkdə olan gənc nəslin milli və bəşəri dəyərlərə istinad olunmaqla tələbyönümlülük, nəticəyönümlülük, inteqrativlik prinsipləri əsasında bir şəxsiyyət kimi formalaşdırılmasını nəzərdə tutur. "Kurikulum islahatı" adı altında ümumtəhsil məktəblərində həyata keçirilən bu yeniləşmə fənlərin, o cümlədən "Azərbaycan dili" fənninin məzmununun, təlim strategiyaları və nailiyyətlərin qiymətləndirilməsinin müasir pedaqoji və psixoloji baxışlar zəminində işlənilməsinə imkan yaratdı. 2008-2009-cu tədris ilindən ümumtəhsil məktəblərinin birinci sinfindən kütləvi şəkildə tətbiq edilməyə başlanılan bu islahatın səmərəli nəticələr verəcəyi bir çox amillərlə bağlıdır ki, bunlardan, bəlkə də, ən önəmlisi məktəbəqədər təhsilin ümumi hazırlığı ilə şərtlənir. Keçən müddət ərzində ibtidai siniflərdə kurikulum islahatının nəticələri göstərdi ki, məktəbəqədər təhsilin məzmunu, təlim strategiyalarında uyğun yeniləşmələr aparmadan ümumtəhsil müəssisələrində gözlənilən səviyyələrə nail olmaq müəyyən çətinliklər yaradacaqdır. Məhz buna görə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 iyul tarixli 137 nömrəli qərarı ilə "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı" təsdiq edilmiş və bu əsasda "Məktəbəqədər təhsilin kurikulumu (3-6 yaş)" hazırlanmışdır. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün "Azərbaycan dili" fənn kurikulumu və "Məktəbəqədər təhsilin kurikulumu"nda varislik prinsipinin nə dərəcədə gözlənilməsi məsələlərini təhlilə cəlb etməzdən əvvəl, hər iki təhsil pilləsinin sonuncu proqramları qoyulan problem baxımından nəzərdən keçirilmişdir. Müəyyənləşdirilmişdir ki, bu təhsil pillələri arasında əlaqə və varislik ənənəvi proqramlarda öz ifadəsini aydın şəkildə tapmamışdır. Belə ki, məktəbəhazırlıq qruplarında aparılan bəzi məşğələlərin məzmunu ibtidai təlimdə eynilə təkrar edilir, təlim materiallarının mürəkkəbləşdirilməsi, inkişafetdiricilik və perspektivlik, demək olar ki, nəzərə alınmır. Məktəbəqə-

dər təhsil proqramında nitqin səs mədəniyyəti ilə bağlı bacarıqların yaş dövrləri üzrə paylaşdırılmasında da varislik və perspektivliyə lazımi səviyyədə əməl olunmur, praktik biliklər biri digərinin təkrarı səciyyəsi daşıyır və bunun bəzi cəhətləri özünü ibtidai siniflərdə də göstərir. Ümumiyyətlə, məktəbəqədər təhsil və ibtidai siniflərin "Ana dili" proqramlarında nitqin səs mədəniyyəti, lüğət tərkibi, nitqin qrammatik quruluşunun formalaşması ilə bağlı uşaqlara aşılanması nəzərdə tutulan bacarıq və vərdişlərin müəyyənləşdirilməsində varisliyə əsaslanan müəyyən sistem gözlənilsə də, burada bəzən təkrarçılığa və hətta təcrübədə özünü doğrultmayan məqamlara yol verildiyi də qabarıq şəkildə nəzərə çarpır.

"Məktəbəqədər təhsilin proqramı (kurikulumu)" və ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün "Azərbaycan dili" fənn kurikulumunda varislik prinsipinin nə dərəcədə gözlənilməsi xüsusi olaraq təhlil edilmişdir. Öncə qeyd etməliyik ki, ənənəvi proqramlardan fərqli olaraq, burada məzmun müəyyən istiqamətlər üzrə standartlaşdırılmış bacarıqlar şəklində verilmişdir. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı" əsasında hazırlanmış "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)" fəaliyyət sahələri üzrə aşağıdakı təlim istiqamətlərini əks etdirir:

1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik
2. İdrakın inkişafı
3. Mədəni-estetik və yaradıcı inkişaf
4. Sosial-emosional inkişaf .

Məzmunun işlənilməsində 7 əsas prinsipdən biri kimi götürülən "uşaqların məktəb təliminə hazırlığının zəruriliyi" uşaqlarda oxumaq həvəsi, məktəbə müsbət emosional münasibətin yaradılması, onların məktəbə uğurla adaptasiya olunması kimi xüsusiyyətlərin formalaşdırılmasına xidmət edir. Proqramın "İnkişaf və təlim standartları" bölməsində orta (3-4 yaş), böyük (4-5 yaş) və məktəbəhazırlıq (5-6 yaş) qrupları üçün bir-biri ilə şaquli inteqrasiya edilmiş əsas və alt standartlar hazırlanmışdır ki, bu da uşaqlara aşılanan bacarıqları əhatə edir. "İdrakın inkişafı" fəaliyyət istiqamətində 3 əsas standartdan biri "2.1. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir" şəklində ifadə olunmuşdur. Məktəbəhazırlıq qrupunda həmin standart tamın hissələri kimi alt standartlara bölünmüşdür.

Ənənəvi proqramdan fərqli olaraq, burada məzmun uşaqlara aşılanması vacib bilinən ən zəruri bacarıqlar şəklində verilmişdir. Bu yanaşma ibtidai siniflərin "Azərbaycan dili" fənn kurikulumunda da

gözlənilmişdir. Belə ki, nitqin fəaliyyət növləri və dilin daxili quruluşu üzrə müəyyənləşdirilən məzmun xətləri ("Dinləyib-anlama və danışma","Oxu","Yazı","Dil qaydaları") şagirdlərin şifahi və yazılı nitq vərdişlərinin inkişafına xidmət edir. Əsası məktəbəqədər təhsildə qoyulan dinləmək və anlamaq, rabitəli danışmaq və nitq etiketlərindən istifadə etmək, yaşıdları və böyüklərlə qarşılıqlı münasibətlər və ünsiyyət qurmaq kimi nitq bacarıqları təhsilin bu mərhələsində şagirdin təqdim olunan nitq nümunələrini başa düşməsinə, düzgün tələffüz vərdişlərinə yiyələnməsinə, sadə nitq etiketlərindən istifadə edərək ünsiyyət qurmasına istiqamətlənmişdir. Hər iki proqramda (kurikulumda) gözlənilən nəticələrin uşaqyönümlü, şagirdyönümlü olması onun praktik zəmində tətbiqinə imkan yaradır. Yeni proqramlarda önəmli olan hansı biliklərin, hansı nəzəri məlumatların verilməsi deyil, hansı bacarıqların qazanılmasıdır. Təbii ki, bu, nəticələrin izlənilməsində varisliyin gözlənilməsini ümumpedaqoji tələb kimi şərtləndirir. Lakin ziddiyət burasındadır ki, məktəbəqədər təhsilin proqramı (kurikulumu) ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumlarından sonra hazırlanmışdır. Əgər ümumtəhsil məktəblərinin ibtidai siniflərində yeni proqramların tətbiqindən artıq 6 il keçirsə, məktəbəqədər təhsil proqramının tətbiqi 2013-2014-cü tədris ilindən nəzərdə tutulmuşdur. Buna baxmayaraq, uşaqların nitq və idraki inkişaf məsələlərində varisliyə əməl olunması təlimin mahiyyətindən irəli gələn xüsusiyyət kimi əsas və alt standartların məzmunca işlənilməsində özünü göstərir. Beləliklə, təhlil göstərir ki, istər ənənəvi, istərsə də yeni proqramlarda təhsilin bu pillələri üzrə nitq inkişafı baxımından nəzərdə tutulan məzmun arasında varisliyin gözlənilməsinə bu və ya digər səviyyədə əməl olunmuşdur. Lakin ənənəvi proqramlarla müqayisədə, yeni proqramlarda bu əlaqə konkret bacarıqlar şəklində işlənildiyindən onu izləmək daha aydın və anlaşıqlı görünür.

"*Varislikdən istifadə problemi ilə bağlı metodik ədəbiyyatın təhlili*" adlanan üçüncü yarımfəsildə varisliklə bağlı Azərbaycan və rus alimlərinin əsərləri təhlil olunur. Metodik ədəbiyyatın təhlili belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan pedaqoji elmində varislik müasir təlim prosesinin aktual problemi olsa da, respublikamızda pedaqoq, psixoloq və metodistlərin diqqətindən bir qədər kənarda qalmışdır. Bəzi kitab və məqalələrdə prob-

lemlə bağlı müəyyən fikirlər söylənilsə də, təlimdə varisliyin nəzəri və praktik məsələləri kompleks şəkildə araşdırılmamışdır. Ana dili tədrisi metodikasında varisliyin gözlənilməsi yolları ilə bağlı yeganə tədqiqatı E.Kərimova aparmış, "Oxu və ədəbiyyatın tədrisində varislik və perspektivlik" mövzusunda dissertasiya yazmışdır. O, varislik prinsipinə təlimdə bütövlük, tamlıq, sistematiklik və fasiləsizlik anlayışlarının vəhdəti kimi yanaşmışdır.

Disssertasiyada A.Abdullayev, Y.Kərimov, A.Rəhimov, A.Həsənov kimi alimlərin əsərlərində məktəb təlimində nitq inkişafı üzrə aparılan işlərdə bağça təliminə əsaslanmağın əhəmiyyəti ilə bağlı söylənilmiş fikir və mülahizələrə münasibət bildirilir. Müəyyən edilir ki, varisliyin mahiyyətinin qiymətləndirilməsində müxtəlif mövqelər mövcuddur. Belə ki, bəzi hallarda o, təlim prosesində fənlərarası əlaqə, bəzilərində yeni biliyin öyrədilməsi zamanı keçmiş biliklərə istinad, digərlərində isə müxtəlif təhsil pillələrində nitq inkişafına vahid tələblərlə yanaşma kimi başa düşülür. Bu halların hamısında varisliyə, bir növ, əlaqə və ardıcıllıq kimi baxılır və onun məzmunu məhdudlaşdırılır. Əslində, varislik daha geniş məzmun diapazonuna malikdir. Varisliyin mahiyyəti bütövün dəyişməsi prosesində, onun əhəmiyyətli elementlərinin və ya ayrı-ayrı cəhətlərinin qorunması və saxlanmasıdır. Varislik bugünkünü dünənki və sabahkı ilə əlaqələndirərərək, bütövün davamlılığını və uzun ömürlülüyünü təmin edir. Nitq inkişafı bu əlaqə zəminində aparıcı sahə kimi daha böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən nitq inkişafı bağça ilə məktəb arasında varisliyin başlıca eleimenti kimi diqqət mərkəzində saxlanılmalıdır.

"*Məktəbəhazırlıq qrupları və ibtidai siniflərdə şifahi nitqin inkişafı üzrə aparlan işlərin mövcüd vəziyyəti*" adlanan dördüncü yarımfəsildə uşaqların şifahi nitqinin inkişaf etdirilməsi baxımından mövcud bağça və məktəb təcrübəsi təhlil olunur, bağça və məktəb arasında varisliyin reallaşdırılmasına əks təsir göstərən obyektiv və subyektiv amillər dəqiqləşdirilir.

Uşaqların şifahi nitq vərdişlərinin inkişaf səviyyəsini öyrənmək məqsədilə Bakı şəhərinin 11, 49, 136, 183 nömrəli uşaq bağçalarının məktəbəhazırlıq qruplarında eksperiment aparılmışdır. Bağçalarda tərbiyəçilərin istifadə etdiyi metod və vasitələrə, ümumiyyətlə, məşğələnin gedişinə müdaxilə edilmədən nitq inkişafının əsas göstəriciləri olan düzgün tələffüz, lüğət işi, cümlə qurmaq vərdişləri və nağıletmənin keyfiyyəti yoxlanılmışdır.

Məktəbəhazırlıq qruplarında aparılan müəyyənedici eksperimentin nəticələri:

| Bağçalar / uşaqların sayı | Nitqin səs mədəniyyəti üzrə iş | | | | Lüğət işi | | | | Məzmun üzrə iş | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Səs tələffüzü | | Sözlərin tələffüzü | | Mənanın izahı | | Sözün cümlədə işlədilməsi | | Plan üzrə nağıletmə | | Yaradıcı nağıletmə | |
| | düz | səhv | düz | səhv | düz | səhv | düz | səhv | düz | səhv | düz | səhv |
| 136 / 17 | 11 | 6 | 6 | 11 | 9 | 8 | 6 | 11 | 10 | 7 | 5 | 12 |
| faizlə | 64,8% | 35,2% | 35,2% | 64,8% | 53% | 47% | 35,2% | 64,8% | 58,9% | 41,1% | 29,4% | 70.6% |
| 11 / 15 | 8 | 7 | 6 | 9 | 8 | 7 | 7 | 8 | 9 | 6 | 5 | 10 |
| faizlə | 53,4% | 46,6% | 40% | 60% | 53,4% | 46,6% | 46,6% | 53,4% | 60% | 40% | 33,3% | 66,7% |
| 183 / 15 | 9 | 6 | 7 | 8 | 10 | 5 | 8 | 7 | 8 | 7 | 4 | 11 |
| faizlə | 60% | 40% | 46,6% | 53,4% | 66,7% | 33,3% | 53,4% | 46,6% | 53,4% | 46,6% | 26,7% | 73,3% |
| 49 / 17 | 10 | 7 | 9 | 8 | 10 | 7 | 8 | 9 | 11 | 6 | 6 | 11 |
| faizlə | 58,9% | 41,1% | 53% | 47% | 58,9% | 41,1% | 47% | 53% | 64,8% | 35,2% | 35,2% | 64,8% |

Birinci fəslə ümumiləşmiş mülahizələrlə yekun vurulur.

Dissertasiyanın ikinci fəsli "**Şifahi nitqin inkişaf etdirilməsində uşaq bağçası ilə məktəb arasında varisliyin gözlənilməsi üzrə işin praktik məsələləri**" adlanır. Fəslin "*Nitqin səs mədəniyyətinin inkişafında uşaq bağçası və məktəb arasında varisliyin reallaşdırılmasının imkan və yolları*" adlanan birinci yarımfəslində bağça ilə məktəb arasında varisliyin qırılmaz əlaqəsi danışıq səsləri üzrə aparılan işlər vasitəsilə açıqlanır. Göstərilir ki, bağçada, xüsusilə məktəbəhazırlıq qruplarında səs təlimi ilə bağlı aparı-

lan işlər məktəb təhsilini səmərəli, elmi-praktik əsaslar üzərində təşkil etməyə imkan verir. Belə ki, uşağın danışıq səsini düzgün tələffüz edə bilməməsi, səsin fonematik əhəmiyyətini qiymətləndirməyi bacarmaması, sözə ehtiyac olmadan səs artırmaq və ya ixtisar etmək, səsi başqa səslə əvəz etmək və s. kimi qüsurları məktəb təlimində səs və hərflərlə bağlı biliklərin qazanılması və oxu texnikasına verilən başlıca tələbin – düzgünlüyün təmin olunmasında çətinlik yaradır. Deməli, bu təhsil pillələri arasında varisliyi təmin etmək üçün uşaq bağçasında nitqin səs mədəniyyətinin tərbiyəsi üzrə işlərdə iki cəhətə xüsusi diqqət verilməlidir:

1.Səsin akustik-fiziki cəhətdən aydın və təmiz tələffüz olunması və eşidilməsi;

2.Səsin fonematik (məna fərqləndiricilik) mahiyyətinin dərk edilməsi.

Bağça məzunları məktəbə səsi ayrılıqda, heca və söz daxilində aydın tələffüz etmək, səsi dəyişməklə yeni söz düzəldə bilmək – bir sözlə, səslə bağlı akustik və müəyyən dərəcədə fonematik bacarıq və vərdişlərə yiyələnərək gəlməlidir ki, məktəb təlimini bu təməl üzərində səmərəli inkişaf etdirmək mümkün olsun.

Bu yarımfəsildə nitqin səs mədəniyyətinin formalaşdırılması üzrə hər iki təhsil pilləsində aparılan səmərəli işlərdən – saitlər, samitlər və qrammatik formaların tələffüzünün praktik yolla mənimsədilməsi yollarından bəhs olunur. Eyni zamanda, nitqin intonasiya baxımından ifadəliliyi üzrə aparılan işlərdə bağça ilə məktəb arasında varisliyin gözlənilməsi məsələlərindən danışılır, uşaqlarda aydın diksiyanın, düzgün nitq tənəffüsünün, nitq şəraitindən asılı olaraq səsin gücünü tənzimləmə bacarığının, məntiqi vurğudan yerində və düzgün istifadə vərdişlərinin tərbiyə olunması üçün konkret yollar və tərbiyəçilərə kömək məqsədilə müəyyən material təqdim edilir.

İkinci yarımfəsildə*"Lüğət üzrə işin təşkilində bağça ilə ibtidai siniflər arasında varisliyin gözlənilməsinin imkan və yolları"*ndan bəhs olunur. Lüğət üzrə işdə bağça ilə məktəb arasında varislik zəruri amil kimi ortaya çıxır, çünki hər iki təhsil müəssisəsində şifahi nitqin inkişaf etdirilməsi üçün eyni istiqamətlərdə iş görülür və bunların əsasında söz və onun üzərində müxtəlif bucaq altında aparılan əməliyyatlar dayanır. Bütün fonetik hadisələr, morfoloji dəyişmələr, sintaktik əlaqə və kateqoriyalar, üslub normaları – bir sözlə, şifahi və yazılı nitqlə bağlı bütün məsələlər söz üzərində müxtəlif əməliyyatlar aparmaqla inkişaf etdirilir.

Bağça və məktəbdə lüğət üzrə aparılan işin ümumi səciyyəsi sözün mənasının dərk edilməsindən ibarətdir. Əvvəlcə lüğəvi mənası mənimsənilən hər bir söz inkişafın sonrakı mərhələsində müxtəlif semantik mənalar fonunda kəmiyyət dəyişmələrindən keyfiyyət dəyişmələrinə keçərək yeni sözün mənim-

sənilməsinə səbəb olur, öyrənmə fasiləsiz xarakter daşıyır. Öyrənilmiş hər hansı bir sözdən həqiqi və məcazi mənalarda düzgün istifadə lüğət üzrə nitq inkişafının hərəkətverici qüvvəsinə çevrilir, inkişaf varisliyin əsasında baş verir.

Mövcud yarımfəsildə:1) mənası çətin sözlərin izahı vasitəsilə; 2) tematik söz qrupları üzərində iş aparmaqla; 3) obrazlı ifadələr, frazeoloji birləşmələrlə uşaqların lüğətinin zənginləşdirməsi istiqamətində səmərəli ola biləcək işlər məşğələlər vasitəsilə açıqlanmışdır. Həmçinin bağça və məktəbdə lüğət ehtiyatının zənginləşdirilməsi məqsədilə sözün leksik mənasının izahı ilə yanaşı, sözün semantikası ilə bağlı işin aparılmasının da səmərəli olduğu eksperimental yolla sübuta yetirilmişdir. Bu məqsədlə Bakı şəhərinin 11, 49, 136, 183 nömrəli bağçalarında sözün leksik mənası və məna qruplarının (çoxmənalı sözlər, sinonim və antonimlər) təlimi ilə bağlı eksperiment materiallar sınaqdan çıxarılmışdır. Bu məşğələlərin məktəb təlimində lüğət üzrə işə və ümumiyyətlə, uşaqların rabitəli monoloji nitqinə təsirini öyrənmək üçün eksperiment qoyulmuş bağçalara ərazicə yaxın 158, 177, 202, 236 nömrəli məktəblərin I siniflərində yuxarıda qeyd etdiyimiz iş növünə uyğun bir neçə məşğələ təşkil olunmuşdur. Bu yolla şagirdlərin lüğət ehtiyatının səviyyəsi və bağçada aparılan məşğələlərin səmərəliliyi müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, məktəbəhazırlıq qruplarında aparılan metodik iş sözün mənasını daha dərindən dərk etməyə və sözün məna qruplarından düzgün istifadəyə şərait yaradır. Eksperimental təlim keçmiş uşaqlarda sözləri məqamına görə düzgün seçmək bacarığının formalaşdırılması nəqletmə zamanı onların yersiz təkrarlar və fasilələrə yol verməməsinə səbəb olmuşdur. Bu da onların şifahi monoloji nitqinin daha cazibədar və axıcı olmasını təmin etmişdir. Nəticələr sübut etdi ki, məktəbəhazırlıq qrupunun nitq inkişafı məşğələlərində sözün məna cəhəti üzrə işə müəyyən vaxt ayırmaq (məşğələnin bir hissəsini) və bu zaman uşaqları: sinonim və antonimlərin tapılması; çoxmənalı sözün müxtəlif mənalarının müqayisəsi, qarşılaşdırılması və cümlədə işlədilməsi; müəyyən situasiyanı ifadə etmək üçün sinonim cərgəsindən daha uyğun sözün seçilməsi və s. üzrə məşq etdirmək onların məktəbə hazırlanması və uşaq bağçası ilə ibtidai siniflər arasında lüğətin formalaşdırılmasında varisliyin reallaşdırılması baxımından səmərəli nəticə verə bilər.

Lüğət üzrə işlə bağlı yoxlayıcı eksperimentin nəticələri:

| Məktəb | Sinif | Şagirdlərin sayı | Oynamaq sözünün mənası | | | | Dibçək sözünün sinonimi | | Təmiz sözünün antonimi | | Sinonim və antonimlərlə hekayə qurmaq | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | həqiqi | | məcazi | | | | | | | |
| | | | düz | Səhv | düz | Səhv | düz | Səhv | düz | Səhv | düz | Səhv |
| 158 | Ia eks. 27 | bağça 11 | 10 | 1 | 9 | 2 | 11 | - | 11 | - | 9 | 2 |
| | | Ailə 16 | 11 | 5 | 9 | 7 | 12 | 4 | 9 | 7 | 5 | 11 |
| | Ib kon. 24 | Bağça 10 | 7 | 3 | 6 | 4 | 10 | - | 7 | 3 | 5 | 5 |
| | | Ailə 14 | 9 | 5 | 6 | 8 | 11 | 3 | 10 | 4 | 6 | 8 |
| 177 | Ia eks. 25 | Bağça 10 | 10 | - | 8 | 2 | 10 | - | 10 | - | 10 | - |
| | | Ailə 15 | 11 | 4 | 9 | 6 | 8 | 7 | 7 | 8 | 7 | 8 |
| | Ib kon. 26 | Bağça 8 | 6 | 2 | 5 | 3 | 8 | - | 8 | - | 5 | 3 |
| | | Ailə 18 | 10 | 8 | 4 | 14 | 9 | 9 | 8 | 10 | 6 | 12 |
| 202 | Ia eks. 29 | Bağça 14 | 12 | 2 | 10 | 4 | 13 | 1 | 12 | 2 | 13 | 1 |
| | | Ailə 15 | 10 | 5 | 6 | 9 | 9 | 6 | 8 | 7 | 5 | 10 |
| | Ib. kon. 26 | Bağça 12 | 11 | 1 | 8 | 4 | 11 | 1 | 10 | 2 | 8 | 4 |
| | | Ailə 14 | 9 | 5 | 4 | 10 | 8 | 6 | 7 | 7 | 6 | 8 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 236 | Ia eks. 27 | Bağça 12 | 10 | 2 | 11 | 1 | 12 | - | 12 | - | 11 | 1 |
| | | Ailə 15 | 9 | 6 | 8 | 7 | 11 | 4 | 9 | 6 | 5 | 10 |
| | Ib kon. 25 | Bağça 11 | 9 | 2 | 6 | 5 | 9 | 2 | 7 | 4 | 6 | 5 |
| | | Ailə 14 | 8 | 6 | 6 | 8 | 10 | 4 | 9 | 5 | 6 | 8 |

Fəslin üçüncü yarımfəslində “*Cümlə qurmaq vərdişləri və rabitəli nitqin inkişafı üzrə aparılan işlərdə uşaq bağçası və məktəb arasında varisliyin təşkilinin imkan və yolları”*ndan bəhs olunur. Bu yarımfəsildə uşaq bağçası və ibtidai siniflərdə cümlə qurmaq üzrə aparılan iş növləri, mənbələr, materiallar baxımından ümumi cəhətlər təhlil edilir və birinin əsasında digərini inkişaf etdirmək imkanları araşdırılır. Burada təhsilin hər iki pilləsində uşaqların cümlə qurmaq vərdişlərini inkişaf etdirmək üçün nəzərdə tutulan iş növlərindən (nümunəvi nitqin dinlənilməsi, bədii parçaların əzbərlənməsi, suallara cavabların verilməsi, cümlələrin tamamlanması, dağınıq verilmiş sözlərdən (şəkillərdən) cümlə tərtibi, eyni məzmunun müxtəlif cümlələrlə ifadəsi, şəkillər, real əşyalar (oyuncaqlar), sxem əsasında cümlə qurmaq, cümlədə bir qrammatik vasitəni digəri ilə əvəz etmək və s.) sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru prinsipi gözlənilməklə istifadə edilməsinin konkret yolları göstərilir, yeri gəldikcə ibtidai sinif dərsliklərində yer almış müvafiq çalışmalar təhlil olunur.

Cümlə qurmaq üzrə tətbiq olunan iş növlərindən ən səmərəlilərini müəyyənləşdirmək və həmin iş növlərinin məktəb təliminə hazırlıqda əhəmiyyətini əsaslandırmaq məqsədilə 11,49,136,183 nömrəli bağçalarda müşahidə və eksperiment aparılmışdır. Cümlə qurmaq üzrə bütün iş növlərinin eyni təlim imkanlarına malik olmadığı qənaətinə gələrək, şəkil üzrə cümlə qurmağın üstünlüklərini yoxlamağa qərar verilmişdir. Eksperimental qruplar kimi 136,183 nömrəli bağçaların məktəbəhazırlıq qrupları müəyyənləşdirilmişdir. Şəkil üzrə cümlə qurmağı əsas iş növü kimi seçərək ətraf aləm, uşaq fəaliyyətinin müxtəlif sahələrinə dair şəkillərlə uşaqların cümlə və rabitəli mətn tərtib etmə imkanları yoxlanılmış, cavablar 11, 49 nömrəli bağça uşaqlarının cavabları ilə müqayisə edilmişdir. Eksperimental qruplarda 9 şəkil üzərində iş aparılmış,“Yazda kənd həyatı” şəkli üzrə ən azı 4 sözdən ibarət cümlə qurmaq tələb olunmuşdur. Şəkil üzrə əvvəlki məşğələlərdə aparılan hazırlıq işləri görülməmiş, şəklin məzmununa aid sual-cavab aparılmamış, ilk müşa-

hidədən sonra müstəqil cümlə qurmaq tapşırılmışdır.

Cümlə qurmaq vərdişlərinin inkişafı ilə bağlı yoxlayıcı eksperimentin nəticələri:

| Bağçalar | Uşaqların sayı | Cümlədəki sözlərin sayına görə | | | | | | Cavab vermədi | Cümlənin düzgünlüyünə görə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 4-5 söz | | 3 söz | | 2 söz | | | | |
| | | düz | səhv | düz | səhv | düz | səhv | | düz | səhv |
| 136 eksper. | 17 | 14 | 3 | 15 | 2 | 17 | - | - | 14 | 3 |
| Faizlə | 100% | 82,4 % | 17.6 % | 88.3 % | 11,7 % | 100 % | - | - | 82,4 % | 17,6 % |
| 11 Kon. | 15 | 5 | 10 | 7 | 8 | 13 | 1 | 1 | 6 | 9 |
| Faizlə | 100% | 33,3 % | 66,7 % | 46,6 % | 53,4 % | 86,6 % | 6,7% | 6,7% | 40% | 60% |
| 183 eksper. | 15 | 13 | 2 | 14 | 1 | 15 | - | - | 12 | 3 |
| Faizlə | 100% | 86,6 % | 13,4 % | 93,3 % | 6,7% | 100 % | - | - | 80% | 20% |
| 49 Kon. | 17 | 6 | 11 | 8 | 9 | 12 | 3 | 2 | 7 | 9 |
| Faizlə | 100% | 35,2 % | 64,8 % | 47,0 % | 52,0 % | 70,5 % | 17,7 % | 11,8 % | 41,1 % | 58,9 % |

Eksperimentin nəticələri göstərdi ki, şəkil üzrə cümlə qurmaq digər iş növlərinə nisbətən daha səmərəlidir. Şəkil üzrə cümlə qurmaq prosesində suallarla iş, nümunənin təkrarı, nümunəyə uyğun cümlə qurmaq, şəklin məzmunu ilə bağlı başlanğıc formada verilmiş dağınıq sözlərdən cümlə qurmaq, cümləni genişləndirmək, sözü sinonimi ilə əvəz etmək və s. çalışmalardan da istifadəyə şərait yaranır.Cümlə qurmaq üçün hər hansı bir dayaq nöqtəsi (mənbə) olmadıqda uşaqların qurduqları cümlələr bəsit və bir-birinin təkrarı olur. Şəkil isə uşağın ətraflı müşahidə obyektinə çevrilir, onu cümlələrlə təsvir etməyə, müstəqil və fərqli münasibət bidirməyə, beynində cümləni daha münasib formaya salmağa şərait yaradır. Bu səbəbdən eksperimental qruplarda istər cavabların kəmiyyəti, istərsə də cümlənin qrammatik cəhətdən düzgünlüyü yüksəkdir. Sözlərin seçilməsində də fərqlər mövcuddur. Belə ki,

kontrol qruplarda “Bura bağdır” (meşədir, tarladır), yaxud “Çay görünür”, “Adamlar işləyir” kimi sxematik cümlələrdən istifadə olunmuş, cümlələrdə kənd həyatı üçün xarakterik sözlər öz ifadəsini tapmamışdır. Halbuki, şəkil üzrə cümlə qurmaqda əsas məqsəd şəklin məzmununu ifadə edə biləcək sözlərin düzgün seçilməsini öyrətməkdən ibarətdir ki, məktəb təlimində də bu vərdişlərdən istifadə edilir.

Təhsilin bütün mərhələlərində rabitəli nitqin formalaşdırılması və inkişafı ana dili təliminin əsas məqsədidir. Formalaşma mərhələsinin əsası bağçada (ailədə), inkişafı isə məktəb təlim fənləri, xüsusilə ana dili tədrisi vasitəsilə həyata keçirilir. Bəhs etdiyimiz yarımfəsildə uşaq bağçası və ibtidai siniflər arasında rabitəli nitqin dialoji və monoloji növlərinin inkişafı baxımından varisliyin gözlənilməsi yolları araşdırılır, monoloji nitqin inkişafında dialoji nitqin (söhbət və müsahibələrin) təsir gücünün artırılması imkanları müəyyənləşdirilir.

Qeyd edək ki, hazırda məktəb bağçadan dinləyib anlama qabiliyyətinə malik, öz fikirlərini düzgün qurulmuş cümlələrlə, məntiqi cəhətdən ardıcıl, dəqiq və dolğun ifadə edə bilən uşaqlar tələb edir. Lakin I sinfə gələn uşaqların nitq fəaliyyəti üzərində müşahidələr göstərir ki, bağçada həmin bacarıqların formalaşdırılmasına lazımi diqqət yetirilmir. Bu məqsədlə öyrədici eksperiment zamanı konkret mövzunun tədrisi ilə yanaşı, uşaqların ümumi dünyagörüşünün, onlarda düşünmə və dərketmə bacarıqlarının inkişafına, fikirlərini rabitəli şəkildə ifadə etmək qabiliyyətinin formalaşdırılmasına hesablanmış iş növlərinin tətbiqinə üstünlük verilmişdir. Müəyyənedici eksperiment aparılmış bağçalarda M.Faiqin “Qış” şeirinin öyrədilməsi ilə bağlı məşğələlər təşkil olunmuş, 11,49 nömrəli bağçalarda tərbiyəçilər məşğələni adi qaydada keçərək, giriş müsahibəsində qışın gəlməsi ilə əlaqədar təbiətdə - insanların, heyvanların və quşların həyat tərzində baş verən dəyişikliklər, qışın spesifik xüsusiyyətləri haqqında yığcam sual-cavab apararaq əsas diqqəti şeirin əzbərlənməsinə yönəltmişlər.

136,183 nömrəli bağçalarda isə həmin şeirin tədrisi eksperimentatorun təklifi ilə nisbətən yüksək çətinlik dərəcəsində təşkil edildi. Burada qarşıya şeirin əzbərlənməsinə nail olmaqla yanaşı, qış fəslinə aid uşaqların biliklərini sistemləşdirmək, uşaqlarda fəslin səciyyəvi xüsusiyyətlərini payızla müqayisədə sadalamaq, əsas əlamətləri ayırmaq və ümumiləşdirmək, qışda insanların, heyvanların və quşların həyat tərzinə dair verilən suallara cavab vermək, cavabları məntiqi ardıcıllıqla əlaqələndirərək rabitəli mətn tərtib etmək bacarıqlarını formalaşdırmaq məqsədi qoyuldu. Tərbiyəçi uşaqları məzmunla tanış etdikdən sonra mətndəki *lopa-lopa, hopa-hopa*, *yığın-yığın, bağır, köks* kimi mənası nisbətən çətin olan sözləri ayrılıqda və mətn

daxilində izah etdi, *mürgüləyən torpaq, ağ göyərçin* kimi obrazlı ifadələrin mənasını açdı. Şeirin təkrar oxusundan sonra *bulaqların (bulaxların), üstə (üsdə), qucaqlayır (qucaxlıyır), mürgüləyən (mürgülüyən)* sözlərinin mətn daxilində tələffüzü üzrə iş getdi. Oxu ilə paralel qış lövhələrini əks etdirən və emosional qavrama şəraiti yaradan diafilm nümayiş etdirildı. Məzmun və obrazlı ifadələr (məcazlar) üzərində sual-cavab zamanı uşaqların cümlə qurmaq vərdişlərinin inkişafına, qurduqları cümlələrdə bu ifadələri işlətmə bacarığına xüsusi diqqət yetirildi. Eksperiment zamanı mətnin əzbərlənməsindən daha çox qış fəslinə dair biliklərin sistemləşdirilməsinə və məzmunun ardıcıl, dolğun və dəqiq ifadəsinə diqqət yetirildi. Bununla bərabər, 22 sözdən ibarət şeirin əzbərlənməsi də çətinlik törətmədi.

Rabitəli nitqin inkişafı üzrə yoxlayıcı eksperimentin nəticələri:

| bağçalar | uşaqların sayı | məzmunun məntiqi ardıcıllığı | | məzmunun dolğunluğu | | qrammatik düzgünlük | | məzmunun ifadəliliyi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | düz | səhv | düz | səhv | düz | səhv | düz | səhv |
| 11 kon. | 15 | 6 | 9 | 5 | 10 | 7 | 8 | 4 | 11 |
| faizlə | 100 % | 40% | 60% | 33,3 % | 66,7 % | 46,6 % | 53,4 % | 26,7 % | 73,3 % |
| 136 eks. | 17 | 14 | 3 | 12 | 5 | 15 | 2 | 16 | 1 |
| faizlə | 100 % | 82,3 % | 17,7 % | 70,5 % | 29,5 % | 88,2 % | 11,8 % | 94,2 % | 5,8% |
| 49 kon. | 17 | 7 | 10 | 6 | 11 | 8 | 9 | 5 | 12 |
| faizlə | 100 % | 41,1 % | 58,9 % | 35,2 % | 64,8 % | 47,0 % | 53% | 29,4 % | 70,6 % |
| 183 eks. | 15 | 12 | 3 | 10 | 5 | 14 | 1 | 13 | 2 |
| Faiz lə | 100 % | 80% | 20% | 66,7 % | 33,3 % | 93,3 % | 6,7% | 86,6 % | 13,4 % |

Tədqiqat aşağıdakı nəticələri söyləməyə imkan verir:

1. Azərbaycan Respublikasında bütün sosial-iqtisadi sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi islahatlar aparılır, təlimin məzmunu, təşkili formaları yeni prinsiplər əsasında işlənilərək şagirdyönümlü, nəticəyönümlü mahiyyət kəsb etməklə yetişməkdə olan nəslin hərtərəfli inkişafına zəmin yaradır. Bu aparıcı məqsəd təhsilin bütün pillələrində yüksələn xətt ilə fasiləsiz davam etdirilir.

2. İbtidai təhsilin bir sıra köklü məsələlərini məktəbəqədər təhsilə əsaslanmaqla, varisliyin imkan və yollarından düzgün istifadə etməklə həyata keçirmək mümkündür. Təhsilin bu iki pilləsi arasında qırılmaz əlaqə mövcuddur. Bağçanın ibtidai təlimə çox güclü təsiri bütün səviyyələrdə özünü göstərir. Məktəb təliminin bağçaya əsaslanması kortəbii, subyektiv meyillərlə bağlı olmayıb varislik prinsipinə istinad edilməklə həyata keçirilir. Bağça və məktəbdə təlim-tərbiyəyə vahid prinsiplərlə yanaşılması təkrar deyil, birinin digərini inkişafetdirici xarakterdə tamamlaması kimi başa düşülməlidir.

3. Bağça və məktəbdə ana dilinin əsas prinsipi olan nitq inkişafı təlim-tərbiyə üçün əlverişli zəmin yaradır və bu iki təhsil pilləsini birlikdə fəaliyyət göstərməyə istiqamətləndirir. Ümumi vəzifələr də eyniləşir; bağçanın əsas vəzifəsi uşaqları məktəb təlimi prosesinə hazırlamaq, məktəbin vəzifəsi isə bağçada öyrədilənlərə əsaslanmaqla təlim-tərbiyə prosesini əlverişli zəmin üzərində təşkil etməkdən ibarətdir. Bu mənada varisliyə müxtəlif yaş və təhsil pillələrində vahid təlim-tərbiyə prosesinin həyata keçirilməsi vasitəsi kimi yanaşmaq lazımdır.

4.Varisliyin təmin olunmasının şərtlərindən biri proqramın məzmunu ilə bağlıdır. Bağça uşaqlarda elə inkişaf səviyyəsi və davranış mədəniyyəti formalaşdırmalıdır ki, uşaq məktəb şəraitinə tez uyğunlaşa və məktəbin proqram materiallarını çətinlik çəkmədən mənimsəyə bilsin. Bu vəzifələrin həyata keçirilməsində nitq inkişafının səviyyəsi həlledici rol oynadığına görə bağça proqramlarında bunlar nəzərə alınmalı və müasir ibtidai məktəbin tələbləri baxımından vəzifələr konkretləşdirilməlidir. İstər ənənəvi, istərsə də kurikulum islahatı əsasında hazırlanmış yeni proqramlarda nitq inkişafı məsələləri bu və ya digər səviyyədə əlaqələndirilmişdir. Əgər varislik ənənəvi proqramlarda müvafiq biliklərin təkraralanması yolu ilə nəzərdə tutulmuşdursa, yeni proqramda standartlaşmış konkret bacarıqların aşılanması yolu ilə ifadə olunur. Bununla belə, məktəbəqədər təhsil kurikulumunun tətbiqinə başlanılmaması bu əlaqənin praktikada nə dərəcədə səmərəli olacağını söyləməyə imkan vermir.

5. Varislik prinsipinin tələblərinə görə nitq inkişafı üzrə aparılan işlərə

bir tam kimi yanaşılmalı, onun komponentləri əlaqəli öyrədilməlidir. Bütün nitq vərdişlərinin əsasasında söz və ona münasibət dayanır, fonetik, leksik, qrammatik və üslubi normalar sözə müxtəlif münasibətlər nəticəsində meydana çıxır. Uşaq bağçası və məktəbdə şifahi nitqin inkişafı üzrə eyni istiqamətlərdə: əvvəlcə səs, sonra lüğət işi, daha sonra isə cümlə və rabitəli nitq üzrə iş aparılır. Öyrənən hər dəfə sözün bir, yaxud bir neçə cəhəti (səs tərkibi, mənası, söz birləşməsi və cümlədə işlədilməsi, müəyyən mətn daxilində birləşdirilməsi) üzərində əməliyyat apararaq nitqdən kompleks şəkildə istifadə etmək vərdişlərinə yiyələnir.

6. Nitq səslərinin səciyyəsini uşaqlar bağçada öyrənir, məktəbəhazırlıq qruplarında bəzi sözlərin tələffüzünü imitasiya yolu ilə mənimsəyirlər.Uşaq imitasiya olmadan, ailə, ətraf mühit və tərbiyəçinin tələffüzündən kənarda ədəbi tələffüzü şüurlu mənimsəyə bilmir. Bu, uşağın yaşı, təhsilin xarakteri, mənimsəmə, dərketmə imkanları ilə səciyyələnir və düzgün nitq şəraitindən asılı olur. Uşaq bağçasında uşaqların fonetik eşitmə qabiliyyəti inkişaf etdirilir, onlar nitq səslərini heca və sadə tərkibli söz daxilindən ayıra bilmək, birhecalı sözlərdə sait və samiti dəyişdirməklə tərbiyəçinin verdiyi nümunə əsasında sadə fonematik təhlil aparmaq, sait və samitləri tanımaq, fərqləndirə bilmək, təhsilin sonuna doğru bütün nitq səslərini aydın tələffüz etmək və s. bacarıqlara yiyələnirlər. İbtidai siniflərdə bu bacarıqlar daha mürəkkəb formada inkişaf etdirilir, dilimizin fonetik sistemi və normalarına dair sadə, praktik bilik və vərdişlər formalaşdırılır.

7. Uşaq bağçasında uşaqlar nitq səslərini öz məxrəcində, sözləri səs və heca buraxmadan, əlavə etmədən, onların yerini dəyişmədən düzgün tələffüz etməyi, sadə orfoepik normaları gözləməyi öyrənirlər ki, bu da ibtidai məktəbdə oxu texnikasına verilən başlıca tələbin – oxunun düzgünlüyünün təmin olunmasına zəmin yaradır.

8. Uşaq bağçada və ya ailədə ana dilini nitq fəaliyyəti prosesində intuitiv və təqlid yolu ilə öyrənir. Buna görə də nitq inkişafı məqsədyönlü və müntəzəm şəkildə idarə olunan tərkib hissələri, metod və vasitələri olan praktik dil sahəsidir. Nitq inkişafının ilk şərti ünsiyyətə olan tələbatı ödəməklə bağlıdır. Normal ünsiyyət isə nitqdə əksəriyyət tərəfindən qəbul olunmuş ümumişlək sözlər, söz birləşmələri (sabit və sərbəst birləşmələr) mövcud olduqda təşkil oluna bilər. Deməli, uşağa nümunəvi nitq etalonu vermək və səmərəli nitq şəraiti yaratmaq lazımdır – tezisi bütün parametrlərinə görə düzgündür.

9. Bağçanın yuxarı qruplarında sözün məna cəhəti üzrə aparılan işlər (sinonimlər, antonimlər, çoxmənalı sözlər) uşaqlar tərəfindən ana dilinin leksikasının şüurlu mənimsənilməsinə imkan yaradır, onlarda müxtəlif nitq

situasiyalarında məzmuna uyğun, dəqiq söz seçmək bacarığı formalaşdırır. Bu isə uşaqların həm intellektual inkişafına, həm də rabitəli nitqinin təkmilləşməsinə və gələcəkdə məktəb təliminə əhəmiyyətli dərəcədə təsir göstərir.

10. Bağça və ibtidai məktəbdə cümlə qurmaq vərdişləri üzrə aparılan iş növləri arasında bir sıra kəsişən məqamların olmasına baxmayaraq, bunların təlim imkanlarını eyni cür qiymətləndirmək olmaz. Təhsilin aşağı pilləsində geniş istifadə olunan bəzi iş növləri mürəkkəbləşmiş formada, hətta bəzən də təkrar olunmuş şəkildə ibtidai siniflərdə tətbiq olunur, bəzilərindən sonrakı mərhələdə imtina edilərək cümlə qurmaq üzrə yeni, sadələşdirilmiş qrammatik təlimə əsaslanan çalışmalar üzrə iş aparılır. Belə ki, nümunənin təkrarı, genişləndirilmiş sual cümləsində bir sual, yaxud şəxs əvəzliyini dəyişməklə, əşyaya aid hərəkətləri ifadə etməklə, bir işarə və bir sual əvəzliyi, bir isim və bir sual əvəzliyi tipində qurulan cümlələr üzrə çalışmalardan I sinifdə, xüsusilə əlfba təliminə hazırlıq və əlifba təliminin birinci mərhələsində istifadə olunur. Sonrakı siniflərdə cümlə üzrə işdə müəyyən təcrübə toplandıqca bunların bəziləri təlim əhəmiyyətini itirir, nisbətən mürəkkəb iş növləri tətbiq edilir. Bununla belə, cümlə qurmaq üzrə iş əvvəlki təcrübəyə, qoyulan tələblərə uyğun davam etdirilir.

11. Bağçada cümlə qurmaq vərdişlərinin inkişafı istiqamətində görülən bir sıra işlər, praktik yolla qazanılan vərdişlər uşaqlara tərbiyəçi tərəfindən oxunmuş bədii əsərin məzmununu təkrar söyləməkdə, müşahidə etdikləri (oyuncaq, əşya, şəkil, təbiət və s.) haqqında faktiki (təsviri və süjetli), yaradıcı hekayələr qurub danışmaqda – bir sözlə, rabitəli monoloji nitqin inkişafında kömək edir. Bütün bunlar uşaq bağçası məzunlarını ibtidai məktəbdə ifadə və inşa yazmağa hazırlayır. Digər tərəfdən, uşaqlar cümlənin intonasiyaya görə növləri, həmcins üzvlü cümlələr, iki sadə cümlədən əmələ gələn mürəkkəb cümlələr və s. haqqında ibtidai siniflərdə yiyələnməli olacaqları nəzəri biliklərə praktik cəhətdən hazırlanmış olurlar.

12. Rabitəli nitqin dialoji və monoloji növləri üzrə aparılan işlərdə bağça ilə ibtidai siniflər arasında qırılmaz əlaqə mövcuddur. Dialoji nitq və müsahibə rabitəli nitqin ilk formalaşma mərhələsini təşkil edir. Bunlar bağça və məktəbdə eyni priyomlarla aparılır. Lakin müsahibə və dialoqlu nitqin rabitəli nitq formasında ifadəsi hər iki mərhələdə konkret çətinliklərə səbəb olur. Xüsusilə alleqorik mətnlərin məzmununun rabitəli nağıl edilməsi, bir tərəfdən, bu sahədə ardıcıl, sistemli iş aparılmaması, digər tərəfdən, vasitəli nitqi vasitəsiz nitqə çevirmək bacarığının kifayət qədər inkişaf etməməsi ilə bağlıdır. Bunun üçün uşaqlara bağçadan başlayaraq başqasının nitqini, tərbiyəçinin göstəriş və məsləhətlərini öz sözləri ilə ifadə etmə-

yi, müəyyən məzmunu nəql edərkən birinci şəxsi üçüncü şəxslə əvəz etməyi öyrətmək lazımdır.

Dissertasiyanın əsas elmi müddəaları iddiaçının çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:

1.Uşaqların nitq inkişafında ailə ilə bağçanın əlbir işinə dair. //Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası), Bakı, ADPU, 2005, №1, s.138-141.

2. Məktəbəqədər yaşlı uşaqlara nitq etiketlərindən istifadə vərdişlərinin aşılanması. /ADPU-nun professor-müəllim heyətinin 63-cü elmi konfransının materialları, Bakı, ADPU, 2003, IV buraxılış, s.38.

3. Uşaq bağçasında uşaqların savad təlimi üzrə məktəbə hazırlanmasının əhəmiyyəti. //Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, Bakı, ARTPİ, 2008, №1, s.177-180.

4. Uşaq bağçası ilə məktəb arasında əlaqə və ardıcıllığın əhəmiyyəti. //"Dil və ədəbiyyat" məqalələr toplusu, Bakı, BDU, 2006, №6(54), s.130-131.

5. Реализация преемственности между детским садом и школой в воспитании звуковой культуры речи. //Педагогические науки, Москва, «Спутник+», 2009, №2 (35), стр 50-54.

6. Uşaq bağçası ilə məktəb arasında varisliyin pedaqoji əsasları. //Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2009, № 3, s.34-40.

7. Uşaq bağçası ilə ibtidai məktəb arasında varisliyin təmin olunması yolları. //Bakı Slavyan Universiteti, Elmi əsərlər, Bakı, 2009, №1, s.177-180.

8. Lüğətin formalaşdırılmasında uşaq bağçası ilə ibtidai siniflər arasında varisliyin gözlənilməsi. //Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası), Bakı, ADPU, 2010, №1, s.237-243.

9. Uşaq bağçası və məktəbdə savad təliminin bəzi məsələləri. /Aspirantların və gənc tədqiqatçıların XII Respublika elmi konfransının materialları, Bakı, ADPU, 2008, s.338.

10. Nitq inkişafı məşğələlərində böyük məktəbəqədər yaşlı uşaqların intellektual fəallığının təmin olunması yolları. //"Məktəbəqədər və ibtidai təhsil", 2010, №1(190), s.46-53.

11. Rabitəli nitqin inkişafı üzrə aparılan işlərdə uşaq bağçası ilə məktəb arasında varisliyin imkanları və yolları. /Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" I Beynəlxalq elmi konfrans, Bakı, BSU, 2010, s.339-345.

12. Cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsində uşaq bağçası ilə

ibtidai məktəb arasında varisliyin imkanları. /Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların Ümumrespublika elmi konfransı. Bakı, Qafqaz Universiteti, 06-07 may, 2010, s.340-342.

13.Varisliyin mahiyyəti, onun fəlsəfi və pedaqoji əsasları. /Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, Bakı, BDU, 2010, s.266-269.

14.Uşaq bağçası ilə ibtidai məktəb arasında varislik probleminə müasir baxış. //Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası), Bakı, ADPU, 2011, №3, s.338-344.

15. Uşaq bağçasında nitqin səs mədəniyyətinin tərbiyəsi üzrə aparılan işlərin ibtidai məktəbdə ana dili təliminə təsiri. /Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları, Bakı, AMİ, 2012, s.291-295.

16. Значение игровых приемов в реализации преемственности между детским садом и школой. // Вектор Науки Тольятинского Государственного Университета (серия: Педагогика, психология), г. Тольяти, ТГУ, 2012, стр.131-134.

17. Nitqin ifadəliliyinin formalaşmasında uşaq bağçası ilə ibtidai məktəb arasında varisliyin reallaşdırılması. /Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı, Bakı, Qafqaz Universiteti, 25-26 aprel, 2013, s.646-647.

18. Müasir dövrdə müəllim hazırlığının əsas prinsipləri. /Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Müəllim hazırlama siyasəti və problemləri" Beynəlxalq Simpoziumu, Bakı, 3-4 may, 2013, s.220-221.

**Мая Рагим кызы Керимова**

РЕЗЮМЕ

Пути и возможности преемственности между детским садом и школой в развитии устной речи детей

На современном этапе развития, в условиях стремительного накопления знаний и обновления технологий одной из наиболее важных задач становится обеспечение непрерывности образования. Развитие требований общества к уровню образования и новые достижения в области педагогической науки особо актуализируют проблему преемственности между детским садом и школой. Развитие речи, как основной элемент преемственности между детским садом и школой приобретает еще большую значимость и должно стоять в центре внимания.

Диссертация состоит из введения, двух глав, охватывающих семь подглав, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность выбранной темы, сформулированы обьект, предмет, цели и задачи исследования, определены научная и практическая значимость работы, а также даны положения, выносимые на защиту.

В первой главе, названной "Теоретические и практические вопросы реализации преемственности между детским садом и школой в развитии устной речи" раскрывается педагогическая сущность преемственности, анализируется степень ее изученности в методической литературе, исследуется предусматривание проблемы в программах детского сада и школы, уточняется реальное состояние в дошкольной и школьной практике.

Во второй главе, озоглавленной "Практические вопросы соблюдения преемственности между детским садом и школой в развитии устной речи" определяются конкретные пути реализации преемственности в работе по разным направлениям развития речи и посредством эксперимента подтверждается их эффективность.

В заключении обобщаются выводы, полученные на основании проведенного исследования.

**Maya Rahim kizi Karimova**

## SUMMARY

### The ways and opportunities of inheritance between kindergarten and school in the development of children's oral speech

The thesis devoted to the research of ways and opportunities of inheritance between kindergarten and school. In the research the principle of inheritance is considered as an important factor which provides uninterruptedness in education and creates connection between past and future.

The thesis consists of introduction, two chapters surrounding seven half chapters, result and list of used literature.

In the Introduction was grounded the urgency of the research, was explained the object and the subject, the purpose, the scientific hypothesis, the duties and the methodological base, also was lightened the methods used in the process of work, the scientific innovation, theoretical and practical importance of the research.

In the first chapter of thesis which is called "Theoretical and practical problems of realizing of the inheritance between kindergarten and school in development of oral speech" is explained the pedagogical essence and the theoretical bases of inheritance according to negation of negation law of dialectics, is defined putting of the problem in the programs of both education steps, the level of learning in the methodic literature and is analysed real situation in kindergarten and school.

In the second chapter which is called "Practical problems of work on keeping inheritance between kidergarten and school in the development of oral speech" work carried out on different directions of speech development – forming sound culture of speech, work on vocabulary, the ability of creating the sentense and the development of connected speech was defined exact ways of realizing of inheritance between kindergarten and primary school and was proved efficiency by experiment.

In the result is summarized the results received from the research, is presented definite offers for enriching the experience of kindergarten and school.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

Мая Рагим кызы Керимова

# ПУТИ И ВОЗМОЖНОСТИ ПРЕЕМСТВЕННОСТИ МЕЖДУ ДЕТСКИМ САДОМ И ШКОЛОЙ В РАЗВИТИИ УСТНОЙ РЕЧИ ДЕТЕЙ

5801.01 – Теория и методика обучения и воспитания

(методика преподавания  Азербайджанского языка)

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора

философии по педагогике

**БАКУ - 2013**